**Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 mart tarixli 797 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş”in icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***[2]

*Rüfət Məmmədov - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*
*Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini*
*Azərbaycan Respublikası maliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası energetika nazirinin müavini*
*Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini*
*Azərbaycan Respublikası Mərkəzi Bank sədrinin müavini*
*Azərbaycan Respublikasının Çexiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.*

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Çexiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 may 2011-ci il
1502

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 8 fevral 2012-ci il tarixli **2005** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 12 fevral 2012-ci il, 034, “Azərbaycan” qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 113**)
2. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)
3. 21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**)
4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
5. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)
6. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)
7. 21 may 2019-cu il tarixli **1189** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Xalq” qəzeti, 22 may 2019-cu il, 111, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 910**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 8 fevral 2012-ci il tarixli **2005** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 12 fevral 2012-ci il, 034, “Azərbaycan” qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 113**) ilə 1-ci hissəsində “**Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini** ” sözləri “**Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini** ” sözləri ilə əvəz edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 29 iyun 2014-cü il, 136,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri "**Sahil Babayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissədən "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini**" və "**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini**" sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində "Aslan Aslanov" sözləri "**Seyfəddin Talıbov**" sözləri ilə, "**Qulu Novruzov**" sözləri "**Ceyhun Bayramov**" sözləri ilə, "**Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi**" sözləri "**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini** " sözləri ilə və "**Tahir Tağızadə**" sözləri "**Fərid Şəfiyev**" sözləri ilə əvəz edilmişdir.

21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları**" sözləri "**rabitə və yüksək texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissədən "**rabitə**" sözündən əvvəl "**nəqliyyat,** " sözü əlavə edilmişdir.

[2] 21 may 2019-cu il tarixli **1189** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 22 may 2019-cu il, 111, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 910** ) ilə 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

**~~Komissiyanın həmsədri~~**

| | |
|---|---|
| ~~Sahil Babayev~~ | ~~- Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini~~ |

**~~Komissiyanın üzvləri:~~**

| | |
|---|---|
| ~~Xələf Xələfov~~ | ~~- , Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Ragim Lətifov –~~ | ~~- Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini~~ |
| ~~Azər Bayramov~~ | ~~- Azərbaycan Respublikası maliyyə nazirinin müavini~~ |
| ~~Musa Pənahov~~ | ~~- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini~~ |
| ~~*Seyfəddin* ***Talıbov***~~ | ~~- Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Sevda Məmmədəliyeva~~ | ~~- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~*Ceyhun* ***Bayramov***~~ | ~~– Azərbaycan Respublikası təhsil nazirinin müavini~~ |
| ~~Elsevər Ağayev~~ | ~~– Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~ |
| ~~Elmir Vəlizadə~~ | ~~- Azərbaycan Respublikası *nəqliyyat, rabitə və yüksək texnologiyalar* nazirinin müavini~~ |
| ~~Səfər Mehdiyev~~ | ~~- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Dövlətxan Dövlətxanov~~ | ~~- Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini~~ |
| ~~Xəqani Abdullayev~~ | ~~- Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini~~ |
| ~~*Ehtiram* ***Rəhimov***~~ | ~~*- Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini*~~ |
| ~~Elşad Nəsirov~~ | ~~- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti~~ |
| ~~Marlen Əsgərov~~ | ~~- "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti~~ |
| ~~*Fərid* ***Şəfiyev***~~ | ~~- Azərbaycan Respublikasının Çexiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri~~ |